# Maarif Xaqlıqov və onun “Ömrün ağlı-qaralı zolaqları” kitabı



Maarif Müəllim (ondan söhbət getdikdə bu sözün yazılışına böyük hərflə başlamaq olar, belə ki, o həm müəllim peşəsini daha da ucaldan şəxslərdən sayıla bilər, həm də həmin adı onun bütün həyat yolunu səciyyələndirən bir ad hesab etmək olar) Xalıqovun “Ömrün ağlı-qaralı zolaqları” kitabı onun həyata baxışını, amalını, əqidəsini, xarakterini kifayət qədər aydın şəkildə nümayiş etdirir. Bu səbəbdən də həmin kitabla bağlı olan qeydlərimi Maarif Xalıqova həsr olunmuş bu dəyərli nəşrə təklif etmək qərarım, məncə, düzgün başa düşülə bilər. Müəllif öz əsərinin janrını kitabının titul səhifəsində tarixi-etnoqrafik- sənədli povest kimi müəyyənləşdirir. Doğrudan da əsər həm bədii, həm də elmi və publisistik xarakterə malikdir. Əsəri bir nəfəsə oxumamaq çox çətindir. Mənə elə gəlir ki, bu əsər Ünzülə ananın timsalında ümumən, Anaya həsr olunmuş bir abidədir. Ünzülə xanımın bütün həyat yolu yenilməz iradə, dözümlülük, fədakarlıq nümunəsi sayıla bilər. Müəllifi yaxşı tanıyanlar əsərdəki avtobioqrafikliyi seçməkdə yəqin ki, çətinlik çəkməzlər. Maarif bəy (ona bu müraciət forması da hər cəhətdən çox yaraşır) bütün həyatı boyu anasının ona aşıladığı mənəvi dəyərlərə layiq şəkildə yaşamışdır. Məncə, bu əsərlə yaxından tanış olmağı ilk növbədə gənclərimizə məsləhət görmək lazımdır. Onlar əsərdəki Ünzülə ana, İsmayıl surətlərindən həyatda nəyi necə etməyi, Yasəf, İsgəndər surətlərindən isə, əsasən, necə etməməyi öyrənməlidirlər. Yeri gəlmişkən, Yasəfin də, İsgəndərin də bütövlükdə mənfi adam olmadıqlarını bildirmək olar. Onların hərəsinin öz sahəsində peşəkar olmaları, cəmiyyətə fayda verə bilmələri əsərdən aydın şəkildə görünür. Sadəcə, həyatın burulğanlarından heç də həmişə uğurlu şəkildə çıxa bilməmələri onların müsbət keyfiyyətlərinə də kölgə salmış olur. Povestin bəzi yerlərini həyəcansız, kövrəlmədən oxumaq çox çətindir. Oxucu həyatın eniş-yoxuşlarını sanki İsmayılla birlikdə qət etməli olur. İsmayılın həyatının uşaqlıq, yeniyetməlik dövrünü izlədikdə, lap çoxdan Rusiya ( o vaxtı Mərkəzi adlanırdı) televiziyasında gördüyüm bir müsahibə yadıma düşdü. Adını unutduğum, çox yaşlı, əməkdar bir veteran qadın gənclərə müraciət edərək belə bir məsləhət verirdi: “Heç vaxt, hətta ən ümidsiz bir vəziyyətdə də, qətiyyən ruhdan düşmək olmaz, çünki həyatda həmişə möcüzəyə yer vardır”. Həqiqətən, təcrübəli insanlar təsdiqləyə bilər ki, bəzən həyatda ən çıxılmaz görünən vəziyyətdə belə az qala möcüzəni xatırladan çıxış yolu tapmaq mümkün olur. Müxtəlif məhrumiyyətlər zəif xarakterli insanları sındıra bildiyi kimi, güclü xarakterə malik olanları daha da güclü edir və mətinləşdirir. İsmayıl, həmçinin Maarif Xalıqovun özü məhz ikinci qəbildən olanlardandır. Maraqlıdır ki, müəllif öz əsərində özünə doğma bildiyi, İsmayıllı rayonunun Maçaxı kəndinə də xeyli yer ayıra bilmişdir. Kəndin tarixi, etnoqrafiyası ilə bağlı qiymətli məlumatlar oxucuda maraq doğurur. Maarif Müəllimin peşəkar tarixçi olması, diyarşünaslığa olan marağı və təəssübkeşliyi də burada özünü parlaq şəkildə göstərir. Yeri gəlmişkən, mənə və tələbə yoldaşım Elşənə Maarif müəllimlə birlikdə həmin kənddə olmaq, kitabda haqqında söhbət gedən qəbiristanlığı ziyarət etmək qismət olmuşdur. Onun həmin yerlərə necə münasibət bəslədiyini canlı müşahidə etmək nəyə desəniz dəyər. Əslində dəyərli əsərlər insana həm də düzgün yol göstərməli, onu müsbət işlər görməyə həvəsləndirməlidir. Bu nöqteyi-nəzərdən kitabda Maçaxı kəndinin qəbiristanlığındakı qədim, möhtəşəm baş daşlarının öyrənilməsinə, həm də qorunmasına olan çağırışı qeyd etmək olar. Maarif Xalıqovu yaxından tanıyanlar onun bütün ömür yolunun mərdlik, halallıq, zəhmətsevərlik, məqsədyönlülük, bir sözlə əsl kişilik nümunəsi olduğunu təsdiqləyə bilərlər. Bu səbəbdən də müəllifin öz əsərini daha da genişləndirməsini, öz həyatının tələbəlik illərindən tutmuş, indiki 70-ci ilinə qədərki dövrünü də daha ətraflı təsvir etməsini yalnız arzulamaq olar. Hətta bu yolda onu dilə tutmağa da dəyər. Uşaqlıqda insan adətən öz yaşıdlarıyla dostluq edə bilir. İllər keçdikcə isə dostluq münasibətlərində yaş fərqi öz əhəmiyyətini itirir. Maarif Müəllim məndən təxminən 12 yaş böyük olsa da, məni özünə dost sayır. Bunun isə mənim üçün böyük bir şərəf olduğunu bildirməyi özüm üçün borc sayıram.

*16 sentyabr 2019-cu il*



***Faiq BABAYEV,***
***elmi işçi, tarix müəllimi***

Kredo 2020.- 13 fevral.- S.12.